DOI: 10.36719/2663-4619/60/6-7

**Sevinc Tofiq qızı Kərimova**
Bakı Slavyan Universiteti

# ÖMÜRLƏRDƏ YAŞAYAN ÖMÜR



Müəllimim haqqında danışmaq mənim üçün nə qədər çətin və məsuliyyətlidirsə, etiraf edim ki, bir o qədər də xoş və qürurvericidir. Onunla ilk tanışlığım Bakı Slavyan Universitetinin magistr pilləsində təhsil aldığım illərdə baş verdi. Divardan asılmış dərs cədvəlində beləcə də yazılmışdı: Seçmə fənn – professor İ.Z.Qasımov. Əksər tələbələr kimi biz də tanımadığımız müəllimin auditoriyaya gəlişini səbirsizliklə gözləyirdik.

İkram müəllimin həlim xasiyyətinə, sadəliyinə, səmimi danışığına, sakit, özünəməxsus səs tembrinə, bütün bunlarla yanaşı ziyasına, elminə valeh olmamaq mümkün deyildi. İkram müəllim dilçiliyin müxtəlif sahələrindən, fərqli məsələlərdən, dilçilikdə mübahisə doğuran məqamlardan o qədər peşəkar, eyni zamanda sadə və anlaşılan şəkildə danışardı ki, biz onu dinləməkdən zövq alardıq. Artıq o illərdə qətiləşdirdim ki, doktoranturada təhsilimi davam etdirsəm, elmi rəhbərim mütləq professor İkram Qasımov olacaq.

M.F.Axundov adına Milli Kitabxabadan yolumu salmışkən, İkram müəllimin elmi fəaliyyəti ilə maraqlanmağı düşündüm. Dissertasiya zalında böyük maraq və həvəslə müəllimimin doktorluq dissertasiyasını vərəqləyirdim. İ.Z.Qasımov "Azərbaycan dilində hərbi leksika (təşəkkülü, inkişafı, sabitləşməsi)" 2003-cü il. Dissertasiyanın hər səhifəsində istər dilçi, istərsə də vətəndaş kimi milli kimliyə, milli təfəkkürə yüksək dəyər verən bir ziyalı ürəyi var idi. Təbii ki, müstəqillik qazanmış respublika üçün Milli Ordu ən mühüm məsələlərdən idi. Hərbi terminlər məsələsi o dövr üçün həm dilçilik, həm də vətənpərvərlik tərəfindən əhəmiyyətli idi. Əsərdə qədim abidələrimizin dilində rast gəlinən hərbi terminlərin bu günə kimi keçdiyi inkişaf və təşəkkül mərhələlərinin sistemli şəkildə öz əksini tapması bu sahəyə böyük qayğı və töhfə idi. (Daha sonra 2010-cu ildə professorun həmmüəllif olduğu "İngiliscə-azərbaycanca-rusca hərbi terminlər lüğəti" işıq üzü görmüş və bu sahəni praktik cəhətdən də zənginləşdirmişdir. Bu gərgin və ardıcıl tədqiqatların davamı olaraq 2017-ci ildə magistrlar üçün nəzərdə tutulmuş "Azərbaycan terminologiyasının əsasları" adlı dərsliyi ali məktəblərdə elmi-pedaqoji əhəmiyyətə malik vəsait kimi istifadə olunmağa başladı.)

İkram müəllimin elmi yaradıcılığı ilə tanışlığım belə başladı. Bəli, məhz həmin gün Milli Kitabxanada. Çünki o heç vaxt özündən sitat gətirməz, "Mən filan kitabımda filan, filan cür yazmışam" və s. bu kimi cümlələrdən istifadə etməzdi, necə ki bu gün etmir. O, 11 kitabın, ali məktəblər üçün 10-a qədər tədris fənni proqramının, xeyli sayda respublika və respublikadankənar nəşr olunmuş məqalələrin müəllifidir. O, öz şəxsi, fərqli fikirlərini bizimlə paylaşarkən sanki dilçilikdə daşlaşmış, hamıya məlum olan bilgilər kimi təqdim edir, bu da bir daha onun olduqca təvazökar insan olduğunu sübut edir.

Daha sonra professor İkram Qasımovun doktorantı olmaq mənə qismət oldu. İkram müəllimi elmi rəhbər kimi tanıdım. Tələbkar, dissertantına can yandıran, işləməyə həvəsləndirən, qarşı tərəfin fikrinə hörmətlə yanaşan, heç vaxt yersiz tərifləməyən, amma heç zaman da ruhdan düşməyə qoymayan əsil ziyalı! Hər hansı məqaləni hazırlayarkən, yaxud dissertasiya üzərində işləməzdən əvvəl onunla görüşür, rəhbərimin konkret mövzuyla, eləcə də dilçiliyimizin başqa sahələri haqqında fikir və mülahizələri mənə ilham verir, hər görüşdə yeni bir fikir doğulurdu.

Elə bu illərdə BSU-da İkram müəllimin 2010-cu ildən rəhbərlik etdiyi Müasir Azərbaycan dili kafedrasında müəllimlik fəaliyyətinə başladım. Onu kafedrada hamı çox sevir. Kafedranın qapısından daxil olan hər kəs ilk olaraq İkram müəllimi soruşur. Bu təkcə onun kafedraya rəhbərlik etməsi ilə bağlı deyil, eyni zamanda insanların ona olan rəğbətinin, hörmətinin ifadəsidir. O, hamını – tələbəni də, dissertantı da, müəllimi də, ona üz tutan həmkarını da səbrlə, təmkinlə dinləyir. Heç kəsdən kömək əlini əsirgəmir, yol göstərməyə, ən çətin məqamda belə ümid verməyə çalışır. Görünür, bu səbəbdəndir ki, "Allah Kərimdir!" onun müsahibi ilə dialoqlarının son cümləsidir. "Allah Kərimdir!" ifadəsi heç vaxt İkram müəllimin dilindən əskik olmur, sanki insana həmişə bir ümid yeri buraxır, hər şeyin yaxşı olacağına inandırır.

Xarakterindəki diqqətcillik, həssaslıq, onun işinə qarşı münasibətində də özünü göstərir. Oxuduğu hər bir yazıya, yoxladığı hər bir sənədə o qədər diqqətlə yanaşır ki, bu vaxta kimi heç kəsə güldən artıq söz dediyini eşitməsəm də, peşəkarlığından irəli gələn zabitəsi insanı daha da məsuliyyətli və diqqətli olmağa məcbur edir.

İllər keçir… Amma biz İkram müəllimdən təbii ki, hələ də öyrənirik. İstər mühazirə, istər seminar dərslərində hər hansı problem yaranarsa, nəsə bir sualımız olarsa, hər zaman ona üz tuturuq. Sanki bütün cavabsız suallarımızın, mübahisəli fikirlərimizin pənah yeridir İkram müəllim. O da öz növbəsində cavablarını müxtəlif elmi ədəbiyyatlardan gətirilən nümunələrlə əsaslandırır, beynəlxalq konfranslarda qazandığı təcrübələri ilə paylaşır. Bakı Dövlət Universitetində təhsil aldığı dövrdə filologiya fakültəsində ona dərs deyən müəllimlərinin – görkəmli alimlərimizin fikirlərini səsləndirir.

Hərdən düşünürəm ki, İkram müəllimin dərs dediyi, rəhbərlik etdiyi yetişdirmələrinin ona bu qədər sevgi bəsləməsinin bir səbəbi də onun öz müəllimlərinin – dilçiliyimizə əvəzolunmaz töhfələr verən o insanların xüsusi hörmətlə xatırlaması və gənc nəslə təbliğ etməsidir. Hər dəfə onlardan danışanda baxışlarından qürur, fəxarət duyulur.

Dəyərli İkram müəllim, istəyirəm, biləsiniz və əmin olasınız ki, mənim kimi onlarla, yüzlərlə dərs dediyiniz tələbələriniz, rəhbərlik etdiyiniz dissertantlarınız, doktorantlarınız, yetişməyində, formalaşmağında əməyiniz olan bu gənclər də, bu insanlar da sizin adınızı eynilə həmin sevgi və hörmətlə səsləndirir. Siz bizim ürəyimizdə, qəlbimizdəsiniz, siz bizim hər uğurumuzda, sabahımızdasınız…

Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edirəm! Sizə uzun və sağlam ömür, elmi-pedaqoji fəaliyyətinizdə uğurlar arzu edirəm. Təbrikimi sizin sözlərinizlə bitirmək istəyirəm: “Allah Kərimdir!”

Göndərilib: 18.11.2020 Qəbul edilib: 20.11.2020